# QƏHRƏMANLAR ÖLMÜR

**Vətən müharibəsi şəhidi, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunmuş, idmançı Məmmədov Murad İlham oğlu**



Məmmədov Murad

Məmmədov Murad İlham oğlu 15 dekabr 2000-ci ildə Bakı şəhərində anadan olub. Orta təhsilini Bakı şəhərinin Nərimanov rayonunda yerləşən 37 saylı tam orta məktəbdə almışdır.

Məktəb illərində Murad Nərimanov Rayon Gənclər və İdman İdarəsi tərəfindən keçirilən bir çox idman yarışlarının qalibi olmuş, Bakı və Respublika çempionatlarında iştirak edərək yüksək nəticələr əldə etmişdir. Karate idman növü üzrə sarı kəmər dan dərəcəsinin sahibi idi.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətin Nərimanov Rayon İdarəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılmış, Vətən Müharibəsində Cəbrayıl və Füzulinin alınmasında iştirak etmiş, Qubadlı istiqamətində gedən döyüşlərdə qəhrəmanlıq göstərərək həlak olmuşdur.

Dəfn mərasimimində Nərimanov Rayon İcra Hakimiyyətinin, Rayon Gənclər və idman İdarəsinin əməkdaşları və könüllülər yaxından iştirak etmişlər.

15 dekabr 2021-ci il tarixdə Nərimanov Rayon İcra Hakimiyyətinin və Rayon Gənclər və İdman İdarəsinin əməkdaşları, könüllüləri və şəhid Murad Məmmədovun ailə üzvləri şəhidin məzarını ziyarət etdilər, gül əklikləri qoydular. 2 fevral 2021-ci il tarixdə Gənclər Günü münasibəti ilə Nərimanov Rayon İcra Hakimiyyətinin, Rayon Gənclər və İdman İdarəsinin əməkdaşları, gənc qazilər və könüllülər Vətən müharibəsi şəhidi, idmançı Murad Məmmədovun evində olmuş, ailəsini ziyarət etmişlər.

Vətən müharibəsi şəhidi, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunmuş, idmançı Məmmədov Murad İlham oğlunun xatirəsinə 2021-ci ilin aprel ayında Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin, Nərimanov Rayon Gənclər və İdman İdarəsinin və "Ağ Top" Şahmat Klubunun birgə təşkilatçılığı ilə onlayn şahmat turniri keçirilmiş, qalibləri isə may ayında Bakı Şəhər Gənclər və İdman Baş İdarəsində mükafatlandırılmışdır.

16 iyul 2021-ci il tarixdə "Odlar Yurdu" Universitetin həyətində, açıq havada Nərimanov Rayon İcra Hakimiyyətinin, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin və Nərimanov Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Vətən müharibəsi şəhidi, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunmuş, idmançı Məmmədov Murad İlham oğluna verilən "İdman Ustası" fəxri adının ailəsinə təqdim edilmə mərasimi keçirilib.

**Vətən Müharibəsi şəhidi, "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə ölümündən sonra təltif olunmuş Səbuhi Sadıqov**



Sadıqov Səbuhi

Səbuhi Rövşən oğlu Sadıqov 9 may 1996-ci ildə Biləsuvar rayonunda anadan olmuşdur. Əslən Füzuli rayonundan olan Sadıqov Səbuhi Bakı şəhəri Nərimanov rayonu 73 saylı tam orta məktəbdə təhsil almışdır. Uşaqlıq yaşlarından idmana böyük həvəsi olan Səbuhi Sadıqov kiçik yaşlarından karate, kikboks ilə məşğul olmuş, 8-9-cu sinifə kimi klublararası turnirlərdə iştirak etmişdir.

Daha sonra sərbəst güləşlə məşğul olmağa başlayan Səbuhi Azərbaycan Güləş Federasiyasının milli yığmasının üzvü olmuşdur. O, respublika daxilində və beynəlxalq yarışlarda dəfələrlə müxtəlif dərəcələri diplomlar ilə təltif olmuş, çempion adını qazanmışdır. Qaydasız döyüş növü üzrə professional olaraq məşğul olmuşdur. Ultimax döyüş növləri federasiyasının üzvü idi. O, bir çox yarışlarda Azərbaycan Respublikasını təmsil edərək qazandığı naliyyətləri ilə bayrağımızı yüksəltmişdir.

2014 - cü ildə Azərbaycan Respublikası Xüsusi Təyinatlı Qüvvələrdə 1il 6ay həqiqi hərbi xidmət etmişdir. 2015-2017-ci illərdə Ultimax Döyüş Növləri Federasiyasının təşkil etdiyi Bakı və 2017-ci ildə Respublika çempionatlarının qalibi olmuşdur.

28 sentyabr 2020 - ci ildə Vətən müharibəsində könüllü olaraq yollanan, ailəsi ilə "Vətən dardadır" deyərək sağollaşan Səbuhi Sadıov "dua et ana mən arzuma çatım" sözlərini demişdir. Səbuhi Azərbaycan Respublikası Xüsusi Təyinatlı Qüvvələrində kəşfiyyatçı kimi 37 gün xidmət etmişdir. Füzuli, Xocavənd, Hadrut, Cəbrayıl, Qubadlı, Laçın istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. O, Laçın istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

5 noyabr 2020-ci ildə Füzuli rayonunun Əhmədbəyli kənd qəbirstanlığında dəfn olunmuşdur.

"Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.

08 may 2021-ci il tarixdə 73 saylı tam orta məktəbdə Nərimanov Rayon İcra Hakimiyyətinin, Yeni Azərbaycan Partiyası Nərimanov Rayon Təşkilatının və Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Vətən Müharibəsi şəhidi, "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunmuş Səbuhi Sadıqovun doğum günü münasibəti ilə "Şəhadətə gedən yol" adlı tədbir və Məktəb-Lisey Kompleksin futbol meydançasında, açıq havada, xüsusi karantin rejimin qaydalarına uyğun olaraq şəhidin xatirəsinə həsr edilmiş mini futbol turniri keçirib.

Muradov Siyavuş Akif oğlu 05 avqust 1991-ci ildə Beyləqan rayonunun Əmirzeyitli kəndində anadan olub. 1997-ci ildə Əmirzeyitli kəndində 1-ci sinifə gedib. 1999-cu ildə Bakı şəhəri 1-ci

**Füzuli istiqamətində gedən döyüşlərdə şəhid olmuş qəhrəmanımız Siyavuş Muradov**




Muradov Siyavuş

Zabrat qəsəbəsinə köçmüş, orada 192 -li məktəbə getmiş, 2008-ci ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir.

Həmin il Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına qəbul olmuş, 2012-ci ildə həmin Akademiyanı bitirmişdir. Hərbi xidmətini Hərbi Dəniz Donanmasında keçmişdir. 2013-cü ildə Daxili Qoşunlarda işə başlamış, 2016-cı ildə təxris olub. 2018-ci ildə zabitlik kursunu bitirdikdən sonra, leytenant rütbəsi ilə Müdafiə Nazirliyinin "N" saylı Hərbi Hissəsində hərbi xidmətə başlayıb.

2020-ci il sentyabr ayının 29-da döyüş bölgəsinə yola düşmüşdür. Fizuli, Cəbrayıl, Hadrut, Zəngilan, Qubadlının azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 25 oktyabr 2020-ci ildə Fizuli istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur.

*Ardı var...*

***Samir KAZIMOV***